*Ermənistan yeni böyük müharibəyə hazırlaşır. Buna baxmayaraq, yüksək döyüş əzmində olan Azərbaycan Ordusu torpaqlarımızı azad etməyə və bütün cəbhələrdə düşməni geri oturtmağa qadirdir. Bir neçə gün bundan əvvəl dövlət sərhədimizin Tovuz rayonu ərazisində Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində bir hərbi qulluqçumuzun şəhid olması, bir əsgərimizin isə yaralanması onu göstərir ki, işğalçı dövlət təxribatlarını davam etdirməkdən çəkinmir.*



# Əminliklə deyirəm ki, qələbə günü UZAQDA DEYİL



BMT Təhlükəsizlik Şurasının qətnamə və qərarlarına qarşı açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistanın təxribat xarakterli belə əməlləri onun iç üzünü aşıq-aşkar göstərir. Əslində, ölkəmizin bir şərti var: işğalçılar bizim torpaqlarımızdan qeyd-şərtsiz və tam çıxmalıdırlar.

Artıq, necə deyərlər, bıçaq sümüyə dirənib. Ali Baş Komandan cənab İlham Əliyevin qeyd etdiyi kimi, nasizmin şöhrətləndirilməsi dövlət siyasəti olan Ermənistanın fitnəkarlığı cavabsız qalmayacaq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

Reallıq isə bundan ibarətdir ki, Ermənistan yeni böyük müharibəyə hazırlaşır. Düşmən təmas xəttinə yaxın ərazilərdə qüvvələr cəmləşdirir. Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində bu beynəlxalq təşkilatın 75 illiyinə həsr olunan Yüksək Səviyyəli İclasındakı çıxışında da bu məsələni diqqətə çatdırıb: “Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Bu, Ermənistan rəhbərliyinin yeni təcavüzkar niyyətini açıq şəkildə nümayiş etdirir. Ermənistanın müdafiə naziri Azərbaycanı “yeni ərazilər uğrunda yeni müharibə” bəyanatları ilə hədələyir”.

Bütün bu hədə-qorxuya baxmayaraq, yüksək döyüş əzmində olan Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə və bütün cəbhələrdə düşməni geri oturtmağa qadirdir.

Ordumuzun hərbi hazırlığına və döyüş əzminə, vətəndaşlarımızın yüksək vətənpərvərlik və milli birlik hissinə güvənərək əminliklə qeyd edirəm ki, böyük qələbə günü uzaqda deyil.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2020.- 25 sentyabr.- S.7.